**Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya bu günlərdə baş tutmuş səfəri çox məhsuldar və ölkəmiz üçün faydalı oldu. Əslində, Azərbaycan lideri Rusiyaya səfərləri zamanı həmişə ölkəmizin milli maraqları baxımından mühüm addımlar atıb, vacib siyasi nəticələr əldə edib, aktual ticari-iqtisadi məsələlərin həllinə nail olub. Ölkələrimiz arasında indiyədək çox geniş müqavilə-hüquqi baza yaradılıb, ən müxtəlif sahələri əhatə edən 245 sənəd imzalanıb. Bu dəfəki səfər çərçivəsində Moskvada Azərbaycan və Rusiya liderləri tərəfindən Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin imzalanması xüsusi əhəmiyyət daşıyır.**



# Qarşılıqlı maraqları təmin edən sənəd

Təsadüfi deyildir ki, Moskvada mətbuata bəyanatla çıxış edən dövlət başçılarının özləri imzalanan bəyannamənin mühüm sənəd olduğunu böyük məmnunluq hissi ilə qeyd etdilər. Prezident İlham Əliyev qeyd etdi ki, bəyannamə Azərbaycan–Rusiya münasibətlərini tamam yeni müttəfiqlik səviyyəsinə qaldırır. Sənəd, əlbəttə, postsovet məkanı ölkələri arasında Azərbaycan üçün böyük imtiyaz, eyni zamanda, məsuliyyət deməkdir.

Təsadüfi deyil ki, indiyədək ölkəmiz Rusiya ilə əməkdaşlıq potensialını ildən-ilə artırmaqla səmimiyyətə, mehriban qonşuluğa, praqmatizmə, qarşılıqlı maraqların nəzərə alınmasına əsaslanan münasibətlər qurub. Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə üzərində isə praktiki olaraq bir ildən də çox müddət ərzində iş aparılıb. Bu müddətdə ölkələrimizin müvafiq ekspert qrupları tərəfindən qarşılıqlı fəaliyyətin bütün əsas sahələrini əhatə edən 43 bənddən ibarət çox geniş sənəd hazırlanıb.

Bəyannamənin birinci bəndində deyilir ki, tərəflər öz münasibətlərini müstəqilliyə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq əsasında quracaqlar. Bu bənd əslində Azərbaycan–Rusiya münasibətlərinin geniş aspektlərini xarakterizə edir. Ona dəlalət edir ki, bizim qarşılıqlı münasibətlərimiz zamanların sınağından uğurla çıxıb və dostluq hisslərinə, qarşılıqlı maraqlara əsaslanır, gələcəyə yönəlib.

Eyni əhval-ruhiyyəni bəyannamənin digər bəndlərində də görmək mümkündür. Məsələn, 4-cü bənddə bəyan edilir: “Rusiya Federasiyası və Azərbaycan Respublikası aktual beynəlxalq problemlər üzrə eyni və ya yaxın mövqelər tutmaqla, o cümlədən, ikitərəfli səviyyə də daxil olmaqla, konstruktiv əməkdaşlığı dərinləşdirirlər, eləcə də qarşılıqlı maraq kəsb edən məsələlər üzrə BMT, ATƏT, MDB, digər beynəlxalq təşkilat və forumlar çərçivəsində qarşılıqlı fəaliyyət göstərirlər”.

Beşinci bənddə tərəflərin Qafqaz və Xəzər regionlarında sabitlik və təhlükəsizliyin təmin edilməsi məqsədilə xarici siyasət sahəsində qarşılıqlı fəaliyyət göstərdiyi qeyd edilir. 6-cı bənd üzərində xüsusilə dayanmağa dəyər: “Rusiya Federasiyası və Azərbaycan Respublikası tərəflərdən birinin fikrincə sülhə təhlükə yarada bilən, sülhü pozan və ya tərəflərdən birinin təhlükəsizlik maraqlarına təsir edən vəziyyət yarandığı, eləcə də bu cür vəziyyətin yaranması təhdidi olduğu təqdirdə onun nizamlanması məqsədilə təxirəsalınmaz məsləhətləşmələrin aparılmasına hazırlıqlarını ifadə edirlər”. 7-ci bənddə bu fikir davam və inkişaf etdirilir: “Rusiya Federasiyası və Azərbaycan Respublikası tərəflərdən birinin fikrincə iki dövlətin strateji tərəfdaşlığına və müttəfiqlik münasibətlərinə xələl gətirən hər hansı hərəkətlərdən çəkinirlər. Bu məqsədlə, onlar iki ölkənin xarici işlər nazirlikləri xətti ilə daimi fəaliyyət göstərən məsləhətləşmələr mexanizmini yaradırlar”.

Ümumiyyətlə, sənəd iki ölkə arasında münasibətlərin gələcəyi üçün böyük perspektivlər açır. Faktiki olaraq, tərəflər qarşılıqlı siyasi fəaliyyəti artırmaq, əvvəllər olduğu kimi, yenə bir-birini beynəlxalq qurumlarda dəstəkləmək, qarşılıqlı ticarətin həcmini artırmaq və gündəlikdəki bütün məsələləri məsləhətləşmələr yolu ilə həll etmək barədə öhdəlik götürürlər.

Elə Rusiya Prezidenti Vladimir Putin də bunları nəzərə alaraq dedi ki, Azərbaycan Prezidenti ilə birgə imzaladıqları müttəfiqlik bəyannaməsi dövlətlərarası münasibətlərin keyfiyyətcə yeni səviyyəyə keçidi ilə əlamətdardır: “Bu strateji sənəd apardığımız danışıqların mərkəzi elementi və əsas yekunudur... Biz, sözsüz ki, möhkəm dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və bir-birinin maraqlarının nəzərə alınması ənənələrinə əsaslanmaqla əsl sıx qarşılıqlı müttəfiqlik münasibətlərini bundan sonra da hərtərəfli inkişaf etdirmək əzmindəyik”.

***İqbal MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 24 fevral.- S.2.